

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 182 (23.594)

23 oktyabr 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

* * *

Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

* * *

Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul edib.



## Cari ilin ötən dövründə ən çox məhsul istehsalı artımı kənd təsərrüfatında qeydə alınıb

*Hazırda dünyada gedən siyasi və iqtisadi proseslər ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafını təmin etmək, insan kapitalından səmərəli istifadə etmək kimi prioritetlərin ön plana çəkilməsini zəruri edir. Bu baxımdan ölkə iqtisadiyyatının inkişaf etdirilməsində sənaye və kənd təsərrüfatı sahələri xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasında da regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan Dövlət proqramlarının uğurlu icrası muxtar respublikada genişmiqyaslı infrastruktur layihələrinin gerçəkləşdirilməsini təmin etmiş, iqtisadiyyatın bütün sahələri üzrə inkişafa nail olunmuşdur. Özəl sektora yeni yanaşmaların tətbiqi, məhsul istehsalında qabaqcıl texnologiyalardan istifadəyə geniş yer verilməsi istehsalatda yeni təsərrüfatçılıq sisteminin formalaşmasına öz töhfəsini vermişdir. Nəticədə, muxtar respublika iqtisadiyyatında rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalı əsas iqtisadi hədəfə çevrilmişdir.*



Qeyd edək ki, bu gün azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsullarının istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsinə imkan verir. Həm bazarın tələbinin təmin edilməsi, həm də yerli xammal potensialından istifadənin genişlənməsi sənaye məhsullarının istehsal həcminin ildən-ilə artmasına şərait yaradır ki, bu da həmin sahədə uğurlu nəticələrin qazanılmasına stimul olur. İqtisadi inkişafın mühüm göstəricisi sayılan ümumi daxili məhsulun tərkibində sənayenin ilk yeri tutması da bunu sübut edir. Belə ki, muxtar respublikada 2020-ci ilin yanvar-avqust aylarında ümumi daxili məhsul istehsalı 1 milyard 840 milyon 976 min manat olmuşdur ki, burada sənayenin payı 758 milyon 415 min 700 manat təşkil etmişdir. Bu, 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

Həyata keçirilən iqtisadi islahatlar bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsinə də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Buna görə də sənaye ilə yanaşı, kənd təsərrüfatı sahəsi də yüksək səviyyədə inkişaf etməkdədir. Aqrar sahənin inkişafını nəzərdə tutan Dövlət proqramlarının uğurlu icrası, bu sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması, istehsal olunan məhsulun satışının təşkili təsərrüfatçılara yeni imkanlar yaratmış, kənd təsərrüfatının bütün sahələrinə marağın artmasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", həmçinin hazırda icrası davam etdirilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" muxtar respublikanın kompleks inkişafını sürətləndirməklə bərabər, aqrar sahədə də məhsul bolluğunun yaradılmasına imkan vermişdir. Məhz buna görədir ki, ötən il olduğu kimi, bu il də kənd təsərrüfatı məhsullarının istehsal həcmi xeyli artmaqdadır. Statistikaya görə, 2020-ci ilin yanvar-avqust aylarında muxtar respublikada 323 milyon 769 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur. İstehsal artımını ayrı-ayrı məhsullar üzrə nəzərdən keçirsək, görərik ki, bəhs olunan dövrdə ötən ilin müvafiq dövrü ilə müqayisədə dənli və dənli-paxlalılar istehsalı 7,5, dən üçün qarğıdalı istehsalı 11,4, kartof istehsalı 1,5, meyvə istehsalı 1, üzüm istehsalı isə 1,1 faiz çoxdur. Heyvandarlıq məhsulları üzrə isə 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,8, süd və yun istehsalı hər iki halda 1,4, yumurta istehsalı isə 1,7 faiz artmışdır.

Yeri gəlmişkən bunu da vurğulamaq lazımdır ki, məhsul istehsalı həcminin artmasında mühüm amillərdən biri də təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanlarının yaxşılaşdırılmasıdır. Rəsmi rəqəmlərə müraciət etsək, görərik ki, 2020-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 119 milyon 399 min 400 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,5 dəfə çoxdur.

Beləliklə, mövzu ilə bağlı əldə olunan nəticələri ümumiləşdirsək, görərik ki, bu ilin yanvar-avqust aylarında sənaye məhsulları istehsalı 1, kənd təsərrüfatı məhsullarının istehsalı isə 3,6 faiz artmışdır. Bu da muxtar respublikanın kənd təsərrüfatı məhsulları potensialını daha da gücləndirir ki, nəticədə, "İxrac ili"ndə daha çox məhsul ixrac etmək imkanlarımız yaranır.

✍ **Səbuhi HƏSƏNOV**

***Muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının möhkəmləndirilməsi, innovativ texnologiyaların və müasir idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi, emal sektorunun inkişafının yüksəldilməsi, yerli istehsal məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.***

## İqtisadiyyatın prioritet istiqamətləri diqqətdə saxlanılır

Son illərdə sahibkarlığın inkişafına dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaratmışdır. Həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq yüzlərlə müasir müəssisə fəaliyyətə başlamış, yeni sənaye sahələri yaradılmış, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artmışdır. Bu gün sənayenin inkişafına yeni təkan vermək, özəl sektorun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye zonalarının yaradılması uğurla davam etdirilir.

Sosial-iqtisadi inkişafa dair qəbul edilən dörd Dövlət proqramının icrası çərçivəsində muxtar respublikada da böyük işlər görülmüş, infrastruktur layihələri həyata keçirilmişdir. Cari ilin yanvar-sentyabr ayları ərzində iqtisadiyyatın bütün sahələri üzrə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 112 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, 58 sahənin yaradılması davam etdirilmişdir.

Yeni istehsal sahələri muxtar respublika iqtisadiyyatında əlavə dəyər qatmaqla yanaşı, regionların inkişafının sürətləndirilməsinə və məşğulluğun təmin olunmasına mühüm töhfələr verir. Belə ki, müxtəlif istiqamətlər üzrə yaradılan yeni sahələrdə 415 yeni iş yeri açılmış, 650 yeni iş yerinin açılması istiqamətində işlər davam etdirilmişdir.

Özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafı biznes mühitinin yaxşılaşdırılması, yeni iş yerləri yaradılmasının göstəricisi olmaqla, bu sahədə həyata keçirilən uzunmüddətli işlərin nəticəsidir. Sahibkarlara maliyyə dəstəyi göstərmək məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu yaradılmış və fondun vəsaitləri regionun hərtərəfli inkişafı üçün prioritet olan istiqamətlər üzrə həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilməkdədir. Fond tərəfindən cari ilin ötən dövrü ərzində 123 layihənin maliyyələşdirilməsinə 13 milyon 700 min manatdan çox güzəştli kredit vəsaiti ayrılmış, həmin vəsaitlər sənaye, xidmət və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılmasında istifadə olunmuşdur.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, mövcud olanların fəaliyyəti bərpa edilir. Son illərdə 400-dən çox sənaye müəssisəsinin yaradılması, bu müəssisələrdə 384 növdə məhsulun istehsal olunması, 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi sahibkarlığın inkişafının nəticəsidir.

Bazar iqtisadiyyatı şəraitində ümumi iqtisadi fəallıqda əsas yeri kiçik və orta sahibkarlıq subyektləri tutur. Təşəbbüskarlıqda həlledici rol da məhz onlara məxsusdur. Ailə təsərrüfatlarının inkişaf etdirilib onların kiçik biznes subyektinə çevrilməsi üçün həyata keçirilən dəstəkləyici tədbirlər, bu mənada, sahibkarlığın da genişləndirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Belə ki, sahibkarlığın inkişafının bir yolunun da ailə təsərrüfatlarının fəaliyyətini dəstəkləməkdən keçdiyini deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ailə təsərrüfatlarının həm yerli istehsalın həcminin artmasına və özünüməşğulluğun təmin olunmasına, həm də kiçik və orta sahibkarlığın inkişafına böyük təkan verdiyini vurğulamışdır. Ailə təsərrüfatlarının inkişafı rayon və kəndlərdə özünüməşğulluğun təmin olunması, əhalinin rifah halının yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

2020-ci ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihələrdən heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatı, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, süd məhsullarının emalı və qablaşdırılması, unlu-qənnadı məmulatların paketlənməsi üçün xammalın və taranın alınması, qovurmanın qablaşdırılması məqsədi ilə 44 ailə təsərrüfatına 510 min 600 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkarlara, iş adamlarına daim dəstək göstərməsi iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə öz töhfəsini verir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Qarabağ qədim Azərbaycan torpağıdır

*Dağlıq və Aran Qarabağ Azərbaycan Respublikasının ən qədim mədəniyyətlərinin beşiyidir. Füzuli şəhəri yaxınlığında olan Azıx və ondan 3 kilometr aralıdakı Tağlar mağaraları, nəinki Azərbaycanda, həmçinin bütün dünyada əhəmiyyəti olan qədim abidələrimizdəndir. Azıx mağarasından aşkar olunan Azıx adamının çənə parçası dünyada ən qədim tapıntılardan biridir. Hazırda bu unikal abidə arxeoloji qazıntı adı ilə ermənilər tərəfindən məhv edilməkdə və erməni abidəsi kimi qələmə verilməkdədir. Bu abidələr işğal altında olan yeganə abidə deyil. Kəlbəcərin qayaüstü təsvirləri, Ağdam rayonunun Orta Qərvənd kəndi yaxınlığındakı İlanlıtəpə, Afatlı kəndindəki Çalağantəpə, Xındırıstan kəndindəki İsmayılbəytəpə, qədim Xocalı qəbiristanlığı, Ağdam şəhəri yaxınlığındakı Üzərliktəpə və yüzlərlə digər abidələrimiz düşmən güllələsinin nişangahına çevrilmişdir. Mənfur düşmənlərimiz qədim Qarabağ abidələrində qanunsuz arxeoloji qazıntılar apararaq bu abidələrdən aşkar olunmuş maddi mədəniyyət nümunələrini erməni mədəniyyəti kimi təbliğ etməkdədirlər.*

Lakin mənfur düşmənlərin bu bədxah fəaliyyətinə baxmayaraq, tarixin səhifələrini vərəqlədikcə Qarabağın, Naxçıvanın və Arazın cənubundakı torpaqların tarixboyu vahid bir mədəniyyətə sahib olduğu aydınca görünür. Hələ eramızdan əvvəl VI minilliyin ikinci yarısında Mil düzü və Qarabağın Neolit mədəniyyəti bənzər xüsusiyyətləri ilə diqqəti cəlb edir. Belə ki, bu dövrdə Mil düzü və Qarabağın mədəniyyətinə aid keramika məmulatının bir qismi basmanaxışlı ornamentlə xarakterizə edilir. Bu tip keramika Naxçıvantəpənin Neolit təbəqəsi üçün də xarakterikdir. Məlum olduğu kimi, basmanaxışlı keramika İran Azərbaycanında yayılan Dalmatəpə mədəniyyəti üçün də xarakterikdir. Şübhəsiz ki, İran Azərbaycanının boyalı keramikasının inkişafına Zaqros və Mesopotamiyanın



Qarabağın qədim sənət nümunələri

mədəni mərkəzlərinin müəyyən təsiri olmuşdur. Lakin tədqiqatçıların fikrincə, Mesopotamiya mədəniyyətlərinin təsirini əks etdirən Dalmatəpə mədəniyyətinin boyalı keramikası özünəməxsus xüsusiyyətləri ilə Şimali Mesopotamiya və Mərkəzi İranın boyalı keramikasından fərqlənir. Ehtimal ki, bu, Dalmatəpə mədəniyyətinin yerli inkişafı ilə bağlı olmuşdur. Araşdırmalar göstərir ki, Dalmatəpənin basmanaxışlı keramikasının mənşəyi Şimali Mesopotamiya və Mərkəzi İranla bağlı deyil. Bu baxımdan basmanaxışlı keramika ilə xarakterizə edilən Naxçıvantəpənin Neolit təbəqəsi, Mil düzü və Qarabağ abidələri diqqəti cəlb edir.Tədqiqatlar göstərir ki, Dalmatəpənin basmanaxışlı keramikasının mənşəyi Mil düzü, Qarabağ və Naxçıvantəpə abidəsi ilə bağlıdır.

Qarabağın basmanaxışlı keramikanın aşkar olunduğu Neolit abidələri eramızdan əvvəl 5600-5200-cü illərə aid edilmişdir. Qarabağın Neolit abidələri ilə Dalmatəpə mədəniyyəti arasında müəyyən xronoloji kəsinti olsa da, Mil düzü və Qarabağ abidə-



Azıx mağarası

lərinin, xüsusilə İlanlıtəpənin müəyyən qrup keramikası Dalmatəpə keramikası ilə eynidir. Belə hesab edirik ki, Dalmatəpə mədəniyyətinin formalaşması eramızdan əvvəl VI minilliyin sonu və V minilliyin əvvəllərini əhatə etmişdir. Bu, Naxçıvantəpənin qazıntıları ilə də təsdiq olunur. Naxçıvantəpənin müxtəlif tikinti qatlarından götürülən kömür nümunələrinin analizi bu mədəniyyətin eramızdan əvvəl 5200-4600-cü illər arasında mövcud olduğunu göstərir. Hazırda basmanaxışlı keramika ilə xarakterizə olunan ən qədim abidələr Mil düzü və Qarabağdadır. Belə hesab edirik ki, Mil düzü və Qarabağın mədəniyyəti Dalmatəpə mədəniyyətinin formalaşmasına, xüsusilə basmanaxışlı keramikanın yaranmasına müəyyən təsir etmişdir. Fikrimizə görə, Naxçıvantəpənin Neolit təbəqəsi Mil düzü və Qarabağ abidələri ilə İran Azərbaycanının abidələrini bir-biri ilə bağlayır. Naxçıvantəpə həm də Dalmatəpə mədəniyyətinin formalaşdığı areala daxil olmuşdur. Arxeoloji ədəbiyyatda mövcud olan fikrə görə, İran Azərbaycanı abidələrində Dalmatəpətipli boyalı keramika basmanaxışlı keramikadan daha əvvəl meydana gəlmişdir. Lakin hazırda İranda aparılan qazıntılara əsasən deyə bilərik ki, basmanaxışlı keramika İran Azərbaycanında eramızdan əvvəl V minilliyin əvvəllərində meydana gəlmişdir. Naxçıvantəpə yaşayış yerində basmanaxışlı keramika eramızdan əvvəl VI minilliyin sonunda meydana gəlmiş, Dalmatəpə mədəniyyəti isə eramızdan əvvəl V minilliyin əvvəllərində formalaşmış və inkişaf etmişdir. Dalmatəpə mədəniyyətinin boyalı keramikasının müəyyən xüsusiyyətləri ilə fərqlənməsinə baxmayaraq, belə hesab edirik ki, boyalı keramikanın inkişafına cənub mədəniyyətlərinin, xüsusilə Son Xalaf və Ubeyd ənənələrinin təsiri olmuşdur.

Son illər aparılan araşdırmalar Naxçıvan yaylaqlarında "Qarabağ yurdu" adlı yaşayış yerlərinin olduğunu göstərir. Arxeoloji dəlillər Azərbaycanın mərkəzində yaşayan Qarabağ tayfalarının Arazın həm şimalında, həm də cənubunda məs-




kunlaşdığını, xalqımızın qədim mədəniyyətlərinin bir-biri ilə əlaqələndirilməsində onların mühüm rol oynadığını təsdiq edir.

Eneolit dövrünün sonunda formalaşan Leylatəpə mədəniyyətinin mərkəzi Qarabağda, Ağdam şəhəri yaxınlığında yerləşən Leylatəpə abidəsi ilə bağlıdır. Qarabağ Eneolit dövrünü əvəz edən Erkən Tunc dövründə formalaşan Kür-Araz mədəniyyətinin də əsas vətənlərindən biri olmuşdur. Kür-Araz mədəniyyətinin formalaşma mərhələsini əks etdirən Proto Kür-Araz keramikasının qədim nümunələri də Qarabağ bölgəsindən məlumdur.

Orta Tunc dövründə Qarabağ Azərbaycanda formalaşan şəhər mədəniyyətinin əsas mərkəzlərindən biri idi. Bu dövrə aid olan Üzərliktəpə Qarabağda şəhər mədəniyyətinin əsas mərkəzi olmuşdur.

Son Tunc və Erkən Dəmir dövrlərində Qarabağda formalaşan Xocalı-Gədəbəy mədəniyyəti Azərbaycanın digər bölgələrinə, o cümlədən Zəngəzura, Naxçıvana və Arazdan cənubdakı torpaqlara da yayılmış, indiki Ermənistan və Gürcüstanın müəyyən hissəsini də əhatə etmişdir. Başlıca olaraq Azərbaycanın qərbini əhatə edən bu mədəniyyətin formalaşdığı ərazi antik qaynaqlarda Otena, Urartu mənbələrində Etiuni adı ilə xatırlanmışdır. Bu cəngavər və döyüşkən tayfalar Azərbaycanın urartular tərəfindən işğalının qarşısını almış, bu dövlətin süquta uğramasının əsas səbəbkarlarından biri olmuşdur. Eramızdan əvvəl VIII-VII yüzilliklərdə skif tayfalarının bu ərazilərdə məskunlaşması onların gücünü daha da artırmışdır.

Tarixboyu Qarabağ Midiya, Əhəməni, Arşaki, Sasani və Ərəb imperiyasının tərkibinə qatılsa da, öz mədəniyyətini və müstəqilliyini qoruyub saxlamışdır. Erkən orta əsrlərdə və orta əsrlərin inkişaf etmiş dövründə türk tayfalarının Azərbaycan ərazisinə axını Qarabağda olan qədim türk tayfalarının mövqeyini daha da möhkəmləndirmişdir. IX-XVIII əsrlərdə Azərbaycan dövlətlərinin tərkibində olan Qarabağda XVIII əsrdə Gəncə və Qarabağ xanlıqları yaranmışdır. Qarabağ xanlığının mərkəzi Dağlıq Qarabağda yerləşən Şuşa qalası idi. Xanlığın sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından başlayaraq bütün düzənlik və Dağlıq Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə Mehri, Tatev və Sisiana qədər uzanırdı.

Rusiya işğalınadək Cənubi Qafqazda müstəqil dövləti olmayan ermənilər böyük imperiyalara yarınmaqla və onların siyasətinə yaradıqları üçün XIX əsrin əvvəllərində burada məskunlaşdırılmışlar. Əsasən, İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisində məskunlaşdırılan ermənilər çox keçmədən xalqımıza və tarixi torpaqlarımıza qarşı əsassız iddialara başlamışlar.1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini elan etdikdən sonra bədxah qonşularımızın



Bərdə türbəsi

haqsız müharibəsi ilə rastlaşdı. Müstəqilliyinin ilk addımlarını atan Azərbaycanın nizami ordu hissələrinin olmamasından istifadə edən erməni vandalları keçmiş sovet ordusundan ələ keçirdikləri silahlarla ölkəmizə basqın etdilər. 1992-1993-cü illərdə Dağlıq Qarabağ, onun ətrafındakı 7 rayon – Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonları Ermənistanın və onun havadarlarının silahlı qüvvələri tərəfindən işğal olundu, bir milyondan artıq həmvətənimiz qaçqın vəziyyətinə düşdü. Ərazilərimizin işğalından indiyədək keçən müddət ərzində erməni vandalları xalqımızın evlərini, məzarlarını, həmçinin işğal olunmuş ərazilərdəki tarix və mədəniyyət abidələrini tamamilə məhv etmişlər. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistanın işğalçılıq siyasətini pisləyən – 822, 853, 874 və 884 nömrəli 4 qətnamə qəbul etmiş, Ermənistan ordusunun Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Lakin işğalçı Ermənistan BMT-nin icra aparatının olmamasından istifadə edərək, nəinki torpaqlarımızdan çıxmamış, hətta erməniləri orada məskunlaşdırmağa başlamışdır. Avropadakı havadarlarına güvənən Ermənistan qəsdən danışıqlar prosesini uzadaraq bu torpaqları sahiblənməyə çalışmışdır.

Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar işğal edildikdən sonra onlar Dağlıq Qarabağdakı qədim türk heykəllərini erməni abidəsi kimi təbliğ etmiş, Alban kilsələrini erməni kilsəsi kimi qələmə vermiş, Azərbaycan türklərinin ulu əcdadlarına aid qoç daşları məhv etmiş, orta əsr qəbiristanlıqlarında erməni xaç daşları basdırmışlar. Fondlarında minlərlə qiymətli eksponatlar toplanan muzeylər, rəsm qalereyaları, dekorativ-tətbiqi sənət nümunələri, nadir kitablar, xalçalar erməni vandalları tərəfindən məhv edilmiş, qiymətli sənət əsərlərinin bir qismi satılmış, bir qismi isə beynəlxalq aləmə erməni mədəniyyəti kimi tanıdılmışdır. Azərbaycan elminin və mədəniyyətinin görkəmli xadimləri Üzeyir Hacıbəyovun, Natəvanın, Bülbülün, Əbdürrəhim bəy Haqverdiyevin və digərlərinin Şuşa şəhərindəki abidələri dağıdılmışdır.

YUNESKO-nun dəfələrlə Ermənistana müraciət etməsinə baxmayaraq, ermənilər öz bədxah əməllərindən əl çəkməmişlər.

Münaqişəni nizamlamaq üçün yaradılan ATƏT-in Minsk qrupu isə fəaliyyətsiz və ikiüzlü mövqe tutaraq bu münaqişəni dondurmağa çalışmışdır. Son illər hakimiyyətə keçən Ermənistanın baş naziri Paşinyanın isə həyasızcasına söylədiyi "Dağlıq Qarabağ Ermənistandır" şüarı xalqımızın səbir kasasını daşırmışdır. Artıq torpaqlarımızın işğalından 30 ildən çox vaxt keçir. Azərbaycan Ordusu Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin başçılığı ilə torpaqlarımızın azad olunması uğrunda mübarizəyə qalxmışdır. 27 sentyabr 2020-ci ildə başlayan azadlıq müharibəsinin ilk günlərindən torpaqlarımızın işğaldan azad olunmasına başlanmışdır. Azərbaycan Ordusunun uğurları qarşısında duruş gətirə bilməyən Ermənistan ordusu qaçmağa başlamış, Ermənistan dövlətinin hərbi-siyasi rəhbərliyi isə təxribata əl ataraq dinc Azərbaycan əhalisini, ictimai və fərdi yaşayış binalarını, enerji xətlərini hədəf edərək xalqımız içərisində çaşqınlıq yaratmağa çalışmışdır. Lakin təxribatlar xalqımızın və əsgərlərimizin mübarizə əzmini qıra bilməmişdir. Azərbaycan Ordusu addım-addım torpaqlarımızı azad etməkdə davam edir. Bu gün xalqımız, Azərbaycanın bütün elm adamları Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə həmrəylik nümayiş etdirir.

***Qarabağ Azərbaycandır!***

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

# Test imtahanlarında şəffaflıq və obyektivlik diqqət mərkəzində saxlanılmışdır

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya sentyabr ayı ərzində də fəaliyyətini gücləndirmiş, qanunvericilikdən, əsasnamədən və iş planından irəli gələn vəzifələri icra etmişdir. Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət edilmiş və 1 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 1 qərarı ləğv etdirilmiş, 5 dövlət orqanının 9 qərarı dəyişdirilmişdir.

Ay ərzində dövlət qulluğu və müəllimlərin işə qəbulu sahəsində Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 122 nəfər iştirak etmişdir.

"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən hamiliyə götürülən Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri üçün "Azərbaycan Respublikasının dövlət qulluğu modeli" və "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu sahəsində islahatlar" mövzularında seminarlar təşkil edilmişdir.

Müəllimlərin işə qəbulu üçün elan edilmiş müsabiqənin test imtahanları 31 avqust - 16 sentyabr tarixlərdə keçirilmiş, müsabiqəyə 268 vakant vəzifə çıxarılmışdır. 186 vəzifənin tutulması üçün 746 namizəd müraciət etmiş, imtahanlarda 714 namizəd iştirak etmiş, 414 namizəd keçid balını toplamış, onlardan 135 nəfər vakant vəzifələrə təyin olunmuşdur.

Dövlət musiqi təhsili müəssisələrində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanları 17-19 sentyabr tarixlərdə keçirilmişdir. Müsabiqəyə çıxarılmış 193 vakant vəzifənin tutulması üçün 125 nəfər sənəd təqdim etmiş, test imtahanlarında iştirak edən 123 namizəddən 35 nəfər müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışdır. Müsabiqənin müsahibə mərhələsi isə 24-25 sentyabr tarixlərdə Naxçıvan Musiqi Kollecində keçirilmişdir. Müsahibə mərhələsində 34 nəfər iştirak etmiş, 23 nəfər müvafiq keçid balını toplayaraq vakant vəzifələrə təyin olunmuşdur.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət vergi orqanlarında vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqənin test imtahanları 22-25 sentyabr 2020-ci il tarixlərdə keçirilmişdir. 20 vakant vəzifənin tutulması üçün qeydiyyatdan keçmiş 184 namizəddən 176-sı test imtahanında iştirak etmiş, 22 nəfər müvafiq keçid balını toplamışdır.

Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsində vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin müsahibə mərhələsi 29 sentyabr tarixində keçirilmişdir. Müsahibədə iştirak edən 6 nəfərdən 4-ü müvafiq keçid balını toplayaraq vakant vəzifələrə təyin olunmuşdur.

Sentyabr ayı ərzində dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş 16 daxili müsabiqədə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşlarının nümayəndə qismində iştirakları təmin edilmişdir.

Ay ərzində ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılmışdır. Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən ehtiyat kadrlar siyahısında olan 19 namizəddən 2-si işlə təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## “Naxçıvanın publisistik xəritəsi” və “Yaratmaq amalı” dərs vəsaitlərinin təqdimatı olub

*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə nəşr olunan Mətanət Məmmədovanın “Naxçıvanın publisistik xəritəsi” və Sahil Tahirlinin “Yaratmaq amalı” dərs vəsaitlərinin təqdimatı olmuşdur.*

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək demişdir ki, bu ali təhsil ocağı artıq bir neçə ildir, muxtar respublikamızın jurnalist kadr hazırlığını məqsədyönlü şəkildə həyata keçirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə qayğısı nəticəsində universitetdə Media Mərkəzi və Jurnalistika ixtisasının fəaliyyəti üçün yaradılan geniş maddi-texniki baza, eyni zamanda təcrübi imkanlar günün tələblərinə cavab verən jurnalistlərin yetişdirilməsinə şərait yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamına əsasən Jurnalistika ixtisası da hamiliyə verilmişdir. Bu gün universitetdə təhsil alan tələbə-jurnalistlər Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, “Şərq qapısı” qəzeti redaksiyasında təcrübə keçir, bilik və bacarıqlarını artırır. Bildirilmişdir ki, təqdimatı keçirilən hər iki kitab mövzu-məzmun, forma-metodik cəhətdən zəngindir. Dövrün aktual mövzularının öz əksini tapdığı kitablar həm dərs vəsaiti kimi tələbələrimizə peşəkar jurnalistikanın qaydalarını mənimsəməkdə, həm də gələcəyin təcrübəli jurnalisti kimi yetişmələri üçün mühüm mənbə rolunu oynayacaqdır.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov muxtar respublikada kütləvi informasiya vasitələri üçün yaradılan müasir şəraitdən danışmış, Ali Məclis Sədrinin Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın “Naxçıvanın publisistik xəritəsi” və jurnalist Sahil Tahirlinin “Yaratmaq amalı” kitablarının Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında dərs vəsaiti kimi tədris olunmasını tövsiyə etməsini muxtar respublikada mətbuat və kütləvi informasiya vasitələrinə göstərilən diqqətin nümunəsi kimi qiymətləndirmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Mətanət Məmmədova çıxış edərək demişdir: “Naxçıvanda mətbuatın bugünkü inkişafı Ali Məclis Sədrinin mətbuata diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Muxtar respublika 30 ilə yaxındır ki, blokada şəraitində inkişaf və tərəqqi edir. Bu gün Naxçıvanın ən ucqar kəndlərindən tutmuş müasirləşən şəhərlərinədək hər bir yerində qurulub-yaradılanlar, abadlaşdırılanlar isə jurnalistlərə yeni-yeni mövzu və ideyalar verir. Muxtar respublikada fəaliyyət göstərən jurnalistlər onlar üçün yaradılan şəraitdən səmərəli istifadə edərək sərbəst və müstəqil fəaliyyətləri ilə cəmiyyət həyatının müxtəlif sahələrinə aid aktual problemləri işıqlandırırlar. Göstərilən dövlət qayğısı muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatını əks etdirən yazılarla mətbuatda çıxış etməyimiz və bu yazıların kitab şəklində nəşr olunması ilə nəticələnmişdir. Bu il Azərbaycan milli mətbuatının yaranmasının 145 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən tədbirdə Ali Məclisin Sədri cənab Vasif Talıbov “Naxçıvanın publisistik xəritəsi” və “Yaratmaq amalı” kitablarının Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında dərs vəsaiti kimi istifadə olunmasını tövsiyə etmişdir. Bu yüksək dəyərə və göstərilən qayğıya görə Ali Məclisin Sədrinə dərin minnətdarlığımızı bildiririk”.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli çıxış edərək bildirmişdir ki, dövlətimiz, xalqımız, cəmiyyətimiz üçün taleyüklü proseslərin getdiyi bir vaxtda bu tədbirin keçirilməsi böyük əhəmiyyət kəsb edir. Ötən əsrin 90-cı illərində Naxçıvan həqiqətlərinin dünyaya çatdırılmasında çətinliklər var idi. Bu gün informasiyanı dünyanın istənilən nöqtəsinə müxtəlif dillərdə çatdırmaq imkanına malikik. Muxtar respublikanın quruculuq mərhələsi medianı da əhatə etmişdir. Bu gün muxtar respublikanın kütləvi informasiya vasitələri ordu gücünə malikdir. Təkcə döyüş meydanında yox, informasiya savaşında da mübarizə aparırıq. Naxçıvan həqiqətləri istər televiziya, istərsə də qəzetlər vasitəsilə geniş auditoriyaya çatdırılır. Hər bir jurnalistin, hər bir yaradıcı qələm adamının mediaya rahat çıxışı təmin edilmişdir. Bu imkanlardan tələbələr maksimum dərəcədə faydalanmalı, öz üzərlərində çalışmalıdırlar. Bu gün təqdimatı keçirilən kitablar da göstərilən dövlət qayğısının bariz nümunəsidir. Sahil Tahirli Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin kollektivi adından göstərilən diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlığını bildirmişdir.



Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, “Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultanova çıxış edərək demişdir ki, Azərbaycanın şərəfli tarixinin yazıldığı bir dövrdə hər bir jurnalist əsl vətənpərvər ziyalı kimi müsəlləh əsgər missiyasını şərəflə yerinə yetirməyə çalışmalı, öz cəbhəsində, fəaliyyətində əzmlə mübarizə aparmalıdır. Jurnalistika sahəsində yaradılan şərait muxtar respublikada bu sahəyə göstərilən böyük dövlət qayğısıdır. Təqdimatına toplaşdığımız kitablar isə günümüzün salnaməsinin yazılması baxımından dəyərli vəsaitlərdir.

Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi Qızbəsti Quliyeva çıxış edərək muxtar respublikada gənc jurnalistlərin yetişdirilməsi üçün yaradılan şəraitdən danışmış, Jurnalistika ixtisasının müəllim və tələbələri adından minnətdarlığını bildirmişdir.

Sonra “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasına əsasən Jurnalistika ixtisasının Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə və “Şərq qapısı” qəzeti redaksiyasının hamiliyinə verilməsi istiqamətində görülən işlər müzakirə olunmuş, təkliflər verilmiş, gələcək perspektivlər müəyyənləşdirilmişdir.

Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin hamiliklə bağlı 2020-2021-ci tədris ili üçün tədbirlər planı tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.

Sonra Media Mərkəzi ilə tanışlıq olmuşdur.

**“Şərq qapısı”**



## Cavid poeziyasının parlaq işığında

***Ədəbiyyat və mədəniyyət tariximizin iftixarı, böyük ideyalar şairi, türkçülük və turançılıq hərəkatının Azərbaycanda ən layiqli davamçılarından, fəlsəfi fikir əfəndisi Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində öz yeri olan və heç kimə bənzəməyən sənətkardır. Çoxlarından fərqli olan Hüseyn Cavid zamanın estetik düşüncəsinə və dünya fəlsəfəsinin problemlərinə, insan bəşər-kosmos amilinə müvafiq hərəkət edirdi. Bu mənada, o, öz müasirləri ilə eyni dövrün sözçüsünə bənzəmirdi. Yaradıcılığa şeirlə başlayan ədib Naxçıvanda görkəmli maarifçi və tanınmış şair Məhəmməd Tağı Sidqinin “Tərbiyə” məktəbində şagird ikən “Gülçin” və Salik təxəllüslü şeirləri ilə ədəbiyyat aləminə tanınmışdır.***

Cavid yaradıcılığı çoxcəhətlidir. O, şeir, dramaturgiya, publisistika, qismən ədəbi tənqid, hətta tərcümə ilə də məşğul olmuşdur. Buna baxmayaraq, Hüseyn Cavid ədəbiyyat aləmində şair və dramaturq kimi böyük şöhrət qazanmışdır. Onun şeir yaradıcılığı çoxəsrlik Azərbaycan lirikasının inkişafında mühüm yer tutur. Böyük şairimizin “Keçmiş günlər” və “Bahar şəbnəmləri” şeir kitablarında XX əsrin ilk onilliyində yaranmış ən yaxşı şeirləri toplanmışdır.

Qüdrətli söz nəhəngi Azərbaycan ədəbiyyatına 18 pyes, 1 poema bəxş etmişdir ki, onlardan 8-i mənzum dramdır. Onun “Şeyx Sənan”, “Ana”, “İblis”, “Səyavuş”, “Xəyyam”, “Peyğəmbər” kimi faciələrində, şeir yaradıcılığında şəxsiyyət, sənət qarşısındakı vəzifəsini yerinə yetirərkən göstərdiyi mətanət, əzm, prinsipiallıq özünü təsdiqləyir.

Dramaturqun ilk səhnə əsəri olan “Ana” pyesində, demək olar ki, surətlərin əksəriyyəti mübariz insanlardır. Ana – Səlma məğrur, mətin, iradəli bir qadındır. İntiqam hissinə susayan qəzəbli insan ehtirasları Səlma ananın alicənablığı və iradəsi önündə sönüb gedir. O oğlunun qatilini əfv etməyi qisas almaqdan daha təsirli cəza tədbiri hesab edib onu bağışlayır. Hüseyn Cavid Səlma ana obrazı ilə bir daha Azərbaycan qadınının iradəsini və humanistliyini ön planda göstərir.

Müharibənin əleyhinə olan ədib “İblis” əsərində, sanki yaşadığımız müasir dünyamızın halını təsvir edir:

*Sellər kimi axdıqca qızıl qan,*
*Canlar yaxar, evlər yıxar insan.*

“Həqiqət istərəm, yalnız həqiqət”, – deyə bütün dünyaya haygıran Cavid humanist bir sənətkardır. O, humanizmində bütün dünya üçün, insanlar üçün haqq və həqiqət qoruyan ədalət axtarırdı. Bu həqiqət eşqilə çırpınan şairin amalı insana, Vətənə, xalqa, insanlığa məhəbbət kimi bütün əsərlərində ön xətdə gedir. Hüseyn Cavidin yazdığı əsərlər xalqı düşündürən, gələcəyə inamla baxmağa sövq edən Vətən, xalq, millət sevgisi ilə daim aktualdır.

1926-cı ildə qələmə aldığı “Azər” poeması bu cəhətdən çox maraqlıdır. Əsər bir süjet xətti üzərində deyil, müxtəlifsəpkili hadisələrdən bəhs etdiyinə görə dastan kimi qollara ayrılır. Belə ki, “Azər düşünür”, “Azərin cavabı”, “Məsciddə”, “Əsgərlər təlim keçərkən”, “Qərbə səyahət”, “Azad əsirlər”, “Rəssamın qızı”, “Üsyan” və sair bölmələrdən ibarətdir.

“Azər” poeması böyüməkdə olan nəsillərin hərtərəfli inkişafına, şəxsiyyət kimi formalaşmasına mühüm təsir göstərə biləcək əsərlərdən biri kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”na salınmışdır.

Millətini, xalqını, sahib olduğu milli dəyərlərini canından artıq sevən böyük mütəfəkkir bütün yaradıcılığı ilə xalqını, millətini xoşbəxt görməyə can atmış, əsl xoşbəxtliyin yüksək təhsil və mədəniyyətlə mümkün olduğunu, bunun üçün isə azad yaşamaq, öz dövlətinə sahiblənməyi əsas şərt kimi təlqin etmişdir.

1937-ci ilin iyun ayında “gizli millətçi əks-inqilabi təşkilat”da iştirakı bəhanəsi ilə səkkizillik həbs cəzasına məhkum edilmişdir. O, 1938-1940-cı illərdə keçmiş SSRİ ərazisindəki ən uzaq və ən soyuq həbs düşərgəsi olan Maqadan şəhərində sürgündə olmuşdur. Hüseyn Cavid milli ədəbiyyatımızda mənzum faciə janrının əsasını qoyan görkəmli sənətkar idi, amma həyat onun üçün ağır bir faciəyə döndü. 1937-ci ildə həbs olunarkən Hüseyn Cavidin şəxsi arxivi məhv edilmiş, “Telli saz”, “Şəhla”, “İblisin intiqamı”, “Atilla”, “Çingiz” dramları, “Koroğlu” ssenarisi yoxa çıxmışdır. Böyük şairimiz 5 dekabr 1941-ci ildə Sibirdəki Tayşet rayonunun Şevçenko qəsəbəsində sürgündə ikən vəfat etmişdir. Ümummilli lider Heydər Əliyev çox böyük cəsarət tələb edən addım atmış, Cavidin cənazəsi 1982-ci ildə Uzaq Sibirdən Bakıya, noyabrın 2-də Naxçıvana gətirilmişdir. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsidir. Hüseyn Cavid şəxsiyyəti və yaradıcılığı, ona verilən yüksək qiymət dahi öndərin bütünlükdə ədəbi-mədəni irsimizə verdiyi yüksək dəyərdir. Ötən əsrin 70-ci illərindən etibarən Cavidin əsərlərinin nəşrinə başlanmış, rus dilində 2 cildliyi işıq üzü görmüşdür. Azərbaycanın şəhər və rayonlarında böyük ədibin yubiley tədbirləri təşkil olunmuş, əsərləri respublikamızın teatrlarında səhnəyə qoyulmuş, adına küçələr, məktəblər, kitabxanalar verilmişdir.

1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilmiş, Naxçıvanda Ali Məclisin Sədri işləyən ümummilli liderimiz yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış etmiş, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunmuşdur. Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin ev-muzeyi yaradılmış, 1993-cü ildə Bakıda Hüseyn Cavidin abidəsi ucaldılmışdır. 1995-ci il iyunun 10-da ulu öndərimiz Heydər Əliyevin yanında keçirilmiş müşavirədə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı məsələlər geniş müzakirə olunmuşdur. Ulu öndərin ən böyük arzularından biri 1996-cı il oktyabrın 29-da həyata keçmişdir. Həmin gün Naxçıvanda böyük sənətkarın məqbərəsinin təntənəli açılışı olmuşdur. Hüseyn Cavidin anadan olmasının 120, 125, 130 və 135 illik yubileyləri geniş şəkildə qeyd edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yubileylərlə bağlı imzaladığı sərəncamlar və təsdiq etdiyi Tədbirlər Planına əsasən qədim diyarımızda da yubiley tədbirləri yüksək səviyyədə təşkil olunmuş, elmi konfranslar və simpoziumlar keçirilmiş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Hüseyn Cavidin “Şeyx Sənan” və “İblis” əsərləri tamaşaya hazırlanmış, “Naxçıvan” jurnalının bir nömrəsi Hüseyn Cavidin 130 illik yubileyinə həsr olunmuşdur.

Xalqımızın böyük oğlu Heydər Əliyevin XX əsr Azərbaycan romantizminin görkəmli siması, romantik şair və filosof haqqında dediyi bu fikirlər Hüseyn Cavid irsinə verilən ən yüksək qiymətdir: ***“Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çatdırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur”.***

**Naibə MİRZƏYEVA**
***Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinin baş fond mühafizi və elmi işçisi***

# Qələbə soraqlı şəhər – Cəbrayıl



***Bir neçə həftə bundan öncə ürəkdən bir ah çəkib, əllərim əsə-əsə “1993-cü ildə Cəbrayıl adlı bir yara açıldı qəlbimizdə” yazmışdım. Bu şəhərin tarixindən, işğal edildiyi gündən məqalə qələmə alanda duam bu olmuşdu: İnşallah bu, işğaldan bəhs edən sonuncu yazım olar. Torpağımız geri qayıdar, xoş, qələbə soraqlı yazılarla salamlayarıq oxucularımızı. 27 il idi ki, ürək yanğısı ilə 27 dəfə Cəbrayılın işğalından yazsaq da, həmişə ümidli, inanclı olmuşuq, demişik ki, biz inanırıq torpağımız geri qayıdacaq. Buna tam əminik, çünki yolumuz ulu öndər yoludur, ordumuz dahi rəhbərin ən böyük arzusu olan Qarabağın tam azad olunması sevincini xalqımıza yaşadacaq.***

Bir aya yaxındır ki, hamımızın ən ümdə arzusu olan azadlıq, qələbə xəbəri ilə açılır səhərlərimiz. Şəhidlərimizin ruhu ağ göyərçinə dönüb qanad çalır işğaldan azad olan torpaqların üzərində. Ali Baş Komandan xalqımızı müjdələdi Cəbrayıl şəhərinin və rayonun 48 kəndinin düşməndən azad edildiyi xəbəri ilə. Qarabağın işğalından keçən illərdən sonra ilk dəfə 2016-cı ildə bir yaz səhərində ilk qələbə xəbəri almışdıq. Cocuq Mərcanlı, Lələtəpə azadlığın ilk addımı idi. Cəbrayıl isə işğaldan azad edilən ilk şəhər oldu. Zəfər şəhəri adını aldı. Azərbaycan əsgəri üçrəngli ay-ulduzlu bayrağımızı dalğalandırdı ən yüksək zirvədə. Qarabağın açarı sayılan Cəbrayıl igid əsgərlərimizin şücaəti ilə rahat nəfəs almağa başladı. Onun sakinlərinin adının yanına yazılan məcburi köçkün sözləri tarixə qovuşdu. 27 ildir, mücrüdə saxlanılan, artıq paslanmış açarlar bağlı qapıları açmağa tələsdi. İllərdir, Vətən həsrəti çəkən insanların ürəyindəki sevinc göz yaşlarına dönüb yanağına süzüldü. Tarixi ədalət bərpa olundu .

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xalqa müraciəti xalqımızın və ordumuzun qətiyyətini, iradəsini bir daha dünyaya göstərdi: ***“Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!”*** Müraciətdə o da deyilir: ***“Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır”.***

### *Cəbrayıl tariximizin yaddaş mərkəzlərindən biridir*

Onlarla tarixi abidənin məskəninə çevrilən bu rayonun ərazisi 105 min hektardır. İşğala qədər rayonda tikiş, xalça, cihazqayırma sexləri, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi. Cəbrayıl milli aşıq-ozan sənətimizin baniləri – Dirili Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərəmin, Aşıq Humayın vətənidir.

Cəbrayılın Ermənistan silahlı qüvvələri tərəfindən tutulması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb. Hazırda Cəbrayıl üzrə 351 nəfər şəhid ailəsi var, 61100 məcburi köçkün 58 rayonda, daha çox isə Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıb.

Zəngin yeraltı sərvətlərə və təbii gözəlliyə malik Cəbrayıl rayonunda mişardaşı istehsalına yararlı və istismara cəlb edilmiş ehtiyatları – Tulus tuf, Çaxmaqçay, Soltanlı tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı Göyərçin-Veysəlli vulkan külü, Minbaşlı gəc, Ağtəpə əhəngdaşı, Cəfərabad qum-çınqıl qarışığı, Sahverdi yəşəm və Çaxmaqqaya xalsedon yataqları var.

Rayonda yaşı 200-1600 il olan 14 iri diametrli Şərq çinarı və digər qiymətli ağaclar, həmçinin Dağtumas kəndində “Divlər sarayı” adlanan mağara təbiət abidəsi kimi qorunurdu. Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi-memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib. 1994-cü il yanvarın 5-də 1993-cü ilin oktyabr ayında işğal edilmiş Cocuq Mərcanlı kəndi Horadiz əməliyyatı zamanı azad edilib. Amma bununla belə, kəndin ətrafındakı əsas yüksəkliklər Ermənistan silahlı qüvvələrinin nəzarətində qaldığı üçün təhlükəsizlik nöqteyi-nəzərdən əhalini geri qaytarmaq mümkün olmayıb. Ordumuzun şanlı qələbəsi Aprel zəfərində Lələtəpə yüksəkliyi başda olmaqla, erməni ordusu həmin ərazilərdən tam qovulub və Cocuq Mərcanlı kəndi, bütünlüklə, Silahlı Qüvvələrimizin nəzarətindədir. Ölkə Prezidentinin sərəncamları ilə Cocuq Mərcanlıda birinci mərhələdə 50 evin, məktəb binasının, məscidin, elektrik yarımstansiyasının tikintisi həyata keçirilib, qaz, elektrik, rabitə, içməli su xətləri, uzunluğu 9 kilometr olan avtomobil yolu çəkilib. Kənddə tikinti işlərinin növbəti mərhələsində daha 100 ev, uşaq bağçası, tibb məntəqəsi, poçt, klub-icma mərkəzi üçün binalar və digər zəruri infrastruktur obyektləri, “Qayıdış” parkı inşa edilib. Dövlətimizin diqqət və qayğısı sayəsində



Cocuq Mərcanlıda həyat öz axarı ilə davam edir. Sakinlər məcburi köçkünlük həyatına son qoyaraq doğma kəndlərində, abad ev-eşiklərində yeni həyata başlayıblar. Bu gün onların da sevincinin həddi-hüdudu yoxdur. Görürlər ki, bu günə kimi torpaq uğrunda fəda edilən canlar hədər getməyib. Bütün bunlar – ordumuzun addım-addım qarış-qarış irəliləməsi bu gün təkcə cəbrayıllıların deyil, Azərbaycanın müxtəlif rayonlarında məskunlaşan məcburi köçkünlərin öz ata-baba ocaqlarına, şəhidlərin narahat ruhları dolaşan o müqəddəs yerlərə qayıdacaqları günün çatdığından xəbər verir.

### *Həsrətində olduğumuz Böyük Qayıdış başlandı*

Artıq bir aya yaxındır, davam edən əks-hücumun hər günü ordumuzun zəfər xəbərləri ilə bəzənir. Tez-tez gələn qələbə müjdələri dosta sevinc, düşmənə isə gözdağı gətirir. İllərdir, arzuladığımız, “O gün gələcək”, – dediyimiz gün gəldi. Azərbaycan əsgəri ürəyində Qarabağ yanğısı, dilində Vətən nəğməsi ilə irəli atılır. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində işğal olunmuş bütün torpaqlarımız – Qarabağımız şəhidlərimizin qanı ilə yoğurulan Vətən torpağı, düşmən tapdağından azad edilir.

“Bütöv Azərbaycan naminə irəli, Azərbaycan əsgəri!” şüarı ilə döyüşə tələsən igid oğullarımız torpağımızı qarış-qarış geri qaytarır. Düşmən isə ardına baxmadan döyüş bayrağını, papağını, silah-sursatı atıb qaçır. Qüdrətli ordumuzun qarşısında dayana bilmir, acığını həmişəki kimi dinc sakinlərdən çıxır, yaşayış məntəqələrini atəşə tutur. Amma nə fayda, bu bizi qorxutmur, əksinə, intiqam hissimizi alovlandırır, qələbəyə olan inamımızı daha da gücləndirir. Bilirik ki, bu, onların son çırpınışlarıdır. Özləri də dərk edirlər ki, Vətən yanğısı ilə döyüşə tələsən azərbaycanlıların qarşısında dayana bilməyəcəklər. Çünki bu xalq ən çətin gündə birləşməyi, bir yumruq olub düşmənin başına ildırım kimi çaxmağı tarixboyu bacarıb, yenə də bacaracaq.

Artıq düşmən anlayır ki, qarşılarında 90-cı illərdəki müstəqilliyini yeni qazanmış nizamlı ordusu olmayan Azərbaycan deyil. Artıq iqtisadiyyatı güclü, ordusu dünyanın ən güclü 50 ordusundan biri, xalqı isə öz dövlətinin və Ali Baş Komandanının yanında hər an döyüşə hazır olan, generalı, polkovnikləri, mayorları səngərdə öz əsgəri ilə döyüşüb qəhrəmancasına şəhid olan, dosta fəxarət, düşmənə ölüm gətirən, tarixi öz qanı, qəhrəmanlığı ilə yazan Azərbaycan əsgəri var.

*Bu gün bütün Azərbaycan xalqının ürəyi cəbhədə döyünür, arzumuz, duamız, istəyimiz isə birdir: Torpaqlarımız işğaldan azad edilsin, bayrağımız Şuşanın, Laçının, Kəlbəcərin ən yüksək zirvələrində dalğalansın.*

**✍ Ramiyyə ƏKBƏROVA**

## Payız-qış mövsümünün uğurla başa vurulması üçün silsilə tədbirlər görülüb

12 avqust 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilmiş müşavirədə Fövqəladə Hallar Nazirliyinin qarşısına qoyulmuş tapşırıqların yerinə yetirilməsi məqsədilə tədbirlər planı hazırlanmış və icrası təmin edilməkdədir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri ilə birlikdə 772 qazanxanada texniki və yanğın təhlükəsizliyinin vəziyyəti yoxlanılaraq suqızdırıcı qazanların, qaz-boru xətlərinin, nəzarət-ölçü cihazlarının texniki cəhətdən sazlığına nəzarət edilib, aşkar olunan çatışmazlıqların aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər görülüb, yeni istifadəyə verilmiş 8 qazanxana qeydiyyata alınıb. Naxçıvan, Ordubad və Şərur şəhərlərində fəaliyyət göstərən peşəyönümlü məktəblərdə 157 nəfər qazanxana maşinisti kursuna cəlb olunub, bu müdavimlərlə əməyin mühafizəsi, siqnalizasiya, elektrik avadanlıqları və yanğın təhlükəsizliyinə nəzarət fənlərinin tədrisi nazirlik tərəfindən təmin edilib.

Standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalının, satışının və istismarının qarşısını almaq məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri ilə birgə 126 ticarət obyektinə baxış keçirilib, sahibkarlar və istehlakçılar əvvəlcədən məlumatlandırılaraq onlara bildirişlər təqdim edilib.

Muxtar respublikada yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 3407 obyektdə yanğın texniki müayinələr keçirilib, 23 min 960 şəxsi yaşayış evində və mənzillərdə profilaktik işlər həyata keçirilib, 85 min 193 nəfər yanğına qarşı təlimatlandırılıb. Yaşayış evlərinə və mənzillərə baxış keçirilərək yanğın cəhətdən təhlükəli olan 367 ədəd elektrik xətti, 795 şlanqla çəkilmiş qaz xətti və qeyri-standart qaz sobasının, 83 qazla işləyən nasaz suqızdırıcının istismarı dayandırılıb, 44 ot-saman tayasının yeri dəyişdirilib. Dəm qazı ilə zəhərlənmələrin qarşısını almaq üçün 17 ictimai yaşayış binasında 515 mənzilin tüstü bacası yoxlanılıb, onlardan 398-i təmizlənib.

431 müəssisədə 19135 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilib, ticarət mərkəzlərində, mərkəzləşdirilmiş qazanxanalarda, habelə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə Naxçıvan Dövlət Televiziyasının iştirakı ilə 2 veriliş, 7 maarifləndirici tədbir, Naxçıvan Dövlət və “Naxçıvanın səsi” radiolarında maarifləndirici verilişlər hazırlanıb. “Şərq qapısı” qəzetində və yerli qəzetlərdə müxtəlif mövzularda məqalələr dərc edilib, internet saytlarında materiallar işıqlandırılıb.

Muxtar respublikada fövqəladə hallarda fəaliyyəti zəruri olan 120 müəssisə və təşkilatda fövqəladə hallara hazırlığın vəziyyəti yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilir.

Nazirliyin struktur qurumlarında, yaşayış və qeyri-yaşayış sahələrində cari təmir işləri aparılıb. Nazirliyin balansında olan xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin payız-qış mövsümü istismarı şəraitinə keçirilməsi planlı şəkildə təşkil olunub, 2 yanğın avtomobili əsaslı təmir edilib. Mülki Müdafiə Alayında 3 aylıq ərzaq, əşya və yanacaq-sürtkü materialları ehtiyatı yaradılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Aztəminatlı ailələrə baş çəkilməsi davam etdirilir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və müvafiq rayon və şəhər icra hakimiyyətlərinin təşkilatçılığı ilə mütəmadi olaraq aztəminatlı ailələrə baş çəkilir, onların problemləri öyrənilir, həlli ilə əlaqədar tədbirlər görülür.

Həmin tədbirlərin davamı olaraq 2020-ci il 22 oktyabr tarixdə Şərur rayon Düdəngə kəndində və Kəngərli rayon Qıvraq qəsəbəsində yaşayan aztəminatlı Qurbanovlar və Məmmədovlar ailələrinə baş çəkilib.

Tədbirdə iştirak edən təşkilatların əməkdaşları əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı, çoxuşaqlı, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatlarının gücləndirilməsi, yoxsulluğun azaldılması istiqamətində muxtar respublikada ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirildiyini vurğulayıblar.

Sonda ailələrə ehtiyaclarına uyğun köməklik göstərilib. Aztəminatlı ailələrin üzvləri dövlətimiz tərəfindən onlara göstərilən dəstəyi yüksək qiymətləndirərək minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayon Alışar kəndində yaşamış Əhmədov Fətulla Məşədi Vəli oğlunun adına verilmiş JN-277A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 791